BEYNƏLXALQ MÜNASİBƏTLƏRİN TƏHLİLİ MƏRKƏZİ

TƏHLİL

# AZƏRBAYCAN-MİSİR ƏLAQƏLƏRİNİN TARİXİ VƏ PERSPEKTİVLƏRİ

Lalə Xəlilzadə

Mirzə İbrahimov 8, Bakı, AZ1005, Azərbaycan

(+994 12) 596-82-39, (+994 12) 596-82-41

E-mail: www.aircenter.az, info@aircenter.az

İYUN 2024

# AZƏRBAYCAN-MİSİR ƏLAQƏLƏRİNİN TARİXİ VƏ PERSPEKTİVLƏRİ

## ƏSAS MÜDDƏALAR

- Azərbaycan və Misir beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərən və bir-birini dəstəkləyən dövlətlərdir;
- Azərbaycan və Misir bir çox sahədə - iqtisadi, hərbi, təhsil, turizm, mədəniyyət, əczaçılıq, enerji, turizm və digər sahələrdə - etibarlı və geniş potensialı olan tərəfdaşlardır;
- İki ölkənin münasibətlərində bəzən müəyyən səbəblərdən yaşanan durğunluq tarixi dostluq əlaqələrini sarsıda bilməyib;
- İkinci Qarabağ Müharibəsindən sonra ikitərəfli əlaqələr yeni mərhələyə qədəm qoyub;
- Son illər ölkə başçılarının qarşılıqlı səfərlərini, imzalanan sazişləri, verilən mesajları gələcəkdə ikitərəfli əlaqələrdə ciddi müsbət dinamikanın müjdəçisi olaraq qiymətləndirmək mümkündür.

## MİSİR-AZƏRBAYCAN ƏLAQƏLƏRİNİN TARİXİNƏ BAXIŞ

Azərbaycanın Ərəb dünyasında zəngin tarixi, mədəni və dini tellərlə bağlı olduğu ölkələr arasında Misir ilk sıralardadır. İki ölkənin çoxəsrlik ortaq ənənələrinə söykənən müştərək miras Misir və Azərbaycan xalqları arasında dostluq əlaqələrini möhkəmləndirmək və inkişaf etdirmək üçün etibarlı zəmin təşkil edir. Azərbaycanın dövlət müstəqilliyini əldə etməsindən sonra bu əlaqələr dövlətlərarası əlaqələrə çevrilib.

İki ölkə arasında diplomatik əlaqələrin 1990-cı illərdə qurulmasına baxmayaraq, Azərbaycana Misirin dövlət başçısının ilk səfəri hələ sovet dönəmində - ötən əsrin 50-ci illərində baş tutmuşdur. Belə ki, **1958-ci ilin may ayında Misirin o zamankı Prezidenti Camal Əbdül Nasir** SSRİ-yə rəsmi səfəri çərçivəsində Bakıda olmuş və Azərbaycandan gözəl təəssüratlarla ayrılmışdır.

İkitərəfli diplomatik əlaqələrin təməli 27 mart 1992-ci il tarixində qoyulmuş, bir il sonra, 1993-cü ildə Misirin Azərbaycanda səfirliyi fəaliyyətə başlamışdır. Azərbaycanın Afrika qitəsində ilk diplomatik nümayəndəliyinin açıldığı Misir həm də Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Azərbaycanla BMT, İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və başqa beynəlxalq təşkilatlarda sıx əməkdaşlıq edən bu ölkə beynəlxalq müstəvidə Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyərək, haqq işini müdafiə edib.

1992-ci ilin yanvarında Misirin keçmiş Baş Nazirinin müavini Kamal Əl-Qanzurinin rəhbərlik etdiyi Misir nümayəndə heyəti Bakıya səfərə gəlmişdir. On ay sonra, həmin ilin noyabr ayında AR xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyəti Misirdə səfərdə olmuş, həmin səfərdə ikitərəfli əlaqələrin inkişafına dair bir sıra sənədlər imzalanmışdır.

Azərbaycan-Misir siyasi əlaqələrinin möhkəm təməli Ümummilli Lider Heydər Əliyevin prezidentliyi dövründə qoyulmuş, Prezident İlham Əliyevin dövründə hərtərəfli inkişaf mərhələsinə daxil olmuşdur.

- **Heydər Əliyev dövrü**

Heydər Əliyevin Azərbaycanın dövlət başçısı kimi Misir Ərəb Respublikasına (MƏR) ilk səfəri 1994-cü ilin sentyabrında baş tutmuşdur. BMT-nin Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransında iştirak etmək üçün Qahirədə işgüzar səfərdə olan H.Əliyev Misir Prezidenti Hüsnü Mübarəklə görüşmüşdür. Görüş zamanı Azərbaycanla Misir arasında münasibətlərin möhkəmləndirilməsi və əməkdaşlığın yeni perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində **çox mühüm** məsələlər müzakirə edimişdir.

Misir-Azərbaycan birgə müəssisəsi tikintiyə **ilk sərmayəsini** H. Əliyevin zamanında qoyub. Bu, Misirin iki şirkətinin keçmiş "Azərtunelmetrotikinti" şirkəti ilə birgə müəssisə yaratması nəticəsində baş tutub. Onlar tenderin qalibi olmuş və müvafiq sənəd keçmiş "Azərtunelmetrotikinti"nin rəhbəri Şaiq Əfəndiyev və Baş nazirin müavini Abid Şərifov tərəfindən imzalanmışdır.

Üç ay sonra həmin ilin dekabr ayında iki dövlət başçısı arasında **ikinci dəfə** Kasablankada İslam Konfransı Təşkilatının zirvə toplantısında görüş baş tutmuşdur. Hər iki görüşdə dövlət başçılarının əsas müzakirə mövzusu ikitərəfli əlaqələr ilə yanaşı, Fələstin-İsrail və keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişələri olmuşdur.

Qeyd edək ki, 2001-ci ilin mart ayında başçılıq etdiyi nümayəndə heyəti ilə Azərbaycanda səfərdə olan Misirin keçmiş xarici işlər nazirinin müavini Mehdi Fəthulla H.Əliyev ilə görüşü əsnasında Qafqaz, eyni zamanda Yaxın Şərq regionuna sülh və əmin-amanlıq arzulayaraq, İsrailin həyata keçirdiyi hücumların Yaxın Şərqdə vəziyyətin gərginləşməsinə, kəskinləşməsinə səbəb olduğunu bildirmişdir. Cavabında H.Əliyev Fələstin-İsrail müharibəsində dünyanın Fələstinə verdiyi dəstək qədər erməni işğalına məruz qalmış Azərbaycana dəstək göstərilmədiyini vurğulamış və qeyd etmişdir: “Bu münaqişənin həll olunmasında dünyanın böyük ölkələrindən, ərəb

dünyasının ən aparıcı dövlətlərindən biri olan Misir Ərəb Respublikasının da dəstəyinə ehtiyacımız vardır.”[1]

Heydər Əliyevin prezidentliyi dönəmində iki ölkə arasında bir sıra digər mühüm görüş və hadisələr baş verib:

- 1993-cü ilin dekabr ayında MƏR-in təhsil naziri Kamal Bəhauddin Bakıda səfərdə olmuşdur;
- 1994-cü ilin aprel ayında AR xarici işlər naziri Həsən Həsənov Misirdə rəsmi səfərdə olmuş, Prezident Hüsnü Mübarək, xarici işlər naziri Əmr Musa, neft naziri, Milli Məclisin Sədri ilə görüşlər keçirmiş, Ərəb Dövlətləri Liqasının sessiyasında çıxış etmişdir;
- 1994-cü ilin aprel ayında BMT-nin Cenevrədəki İnsan hüquqları Komissiyasının 52-ci sessiyasında Misir Azərbaycanın mövqeyini dəstəkləmişdir;
- 1995-ci ilin noyabrında Misir Dövlət Neft Şirkəti İdarə heyətinin sədri F.Əbdüləzizin başçılığı ilə MƏR nümayəndə heyəti Bakıda səfərdə olmuş və Misirə Azərbaycanın neftçıxarma avadanlıqlarının göndərilməsi haqqında müqavilə imzalanmışdır;
- 1996-cı ilin may ayında AR Milli Təhlükəsizlik Naziri Namiq Abbasov misirli həmkarı Ömər Süleymanın dəvəti ilə MƏR-də səfərdə olmuş, səfər zamanı AR və MƏR arasında təhlükəsizlik üzrə əməkdaşlıq Sazişi imzalanmışdır;
- 1997-ci ilin fevral ayında MƏR xarici işlər nazirinin müavini Fəthi Şazlinin rəhbərlik etdiyi Misir nümayəndə heyəti Bakıda səfərdə olmuş və nümayəndə heyəti Azərbaycan Prezidenti H.Əliyev tərəfindən qəbul edilmişdir;
- 1998-ci ilin noyabr ayında AR Daxili İşlər naziri R.Usubov misirli həmkarı Həbib Əl-Adlinin dəvəti ilə MƏR-də səfərdə olmuş və Misir Prezidenti H.Mübarək tərəfindən qəbul edilmişdir;
- 2000-ci il 28 yanvar-5 fevral tarixlərində Misir Ərəb Respublikası Xarici İşlər Nazirliyinin dəvəti ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirinin müavini Xələf Xələfovun başçılıq etdiyi nümayəndə heyəti Misirdə işgüzar səfərdə olmuşdur.
- 3 oktyabr 2002-ci il tarixində Azərbaycan Respublikası ilə Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiya yaradılmışdır.

**Onu da qeyd etmək lazımdır ki, müstəqilliyinin ilk illərindən Azərbaycanın mövqeyini beynəlxalq təşkilatlarda dəstəkləyən Misir 2000-ci ilin 19 dekabr tarixində BMT Baş Assambleyasının 55-ci sessiyasının iclasında “BMT ilə ATƏT arasında əməkdaşlıq” haqqında Qətnamə layihəsinə**

[1] https://lib.aliyev-heritage.org/AZ/94234507.html Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Misir Ərəb Respublikasının Xarici İşlər nazirinin müavini Mehdi Fəthullahın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə söhbəti - Prezident sarayı, 24 mart 2001-ci il

**Azərbaycan Respublikasının təqdim etdiyi düzəlişə dair səsvermə zamanı, keçən illərdən fərqli olaraq, Azərbaycanın mövqeyini dəstəkləməyərək bitərəf mövqe tutmuşdur.**[2]

Həmçinin qeyd edək ki, 1997-ci ildə Misir Azərbaycan qaçqınlarına müxtəlif dava-dərman və ərzaq şəklində 100 min dollarlıq yardım etmiş, 1998-ci ildə bu yardımın həcmi 250 min dollar olmuşdur. 1999-cu ildə bu yardımın həcmi 34-35 min dollara qədər aşağı düşmüşdür.

- **İlham Əliyev dövrü**

İlham Əliyevin prezidentliyi dönəmində ikitərəfli əlaqələr yeni müstəviyə qədəm qoydu. İ.Əliyevin Misirə **ilk rəsmi səfəri** 2007-ci ilin 6-8 may tarixlərində baş tutmuşdur. Səfərin ilk günü Qahirədə İ. Əliyevin və Misir Ərəb Respublikasının Prezidenti Hüsni Mübarəkin təkbətək, mayın 7-də isə Misir parlamentinin (Xalq Məclisinin) sədri Əhməd Fəthi Sürurla görüşü baş tutmuşdur.

Həmin səfəri önəmli edən məqamlardan biri İ.Əliyevə Misir Xalq Məclisinin ali qonaqlarına təqdim edilən qızıldan hazırlanmış xüsusi **medalın təqdim edilməsi** olmuşdur.

Səfərin digər önəmli məqamı iki ölkə arasında müxtəlif sahələri əhatə edən **12 əməkdaşlıq sənədi**nin imzalanması olub:

- iki ölkənin daxili işlər, ədliyyə  və kənd təsərrüfatı nazirlikləri arasında əməkdaşlıq sazişi;
- iki ölkənin dövlət informasiya agentlikləri arasında əməkdaşlıq sazişi;
- İnformasiya Texnologiyaları Nazirlikləri arasında əməkdaşlıq memorandumu;
- Azərbaycanın Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Misirin Mineral Ehtiyatlar Qurumu arasında texniki əməkdaşlıq Protokolu;
- Azərbaycan Respublikasının M.F.Axundov adına Milli Kitabxanası və Misir Ərəb Respublikasının İsgəndəriyyə Kitabxanası arasında Anlaşma Memorandumu;
- Azərbaycanın Abşeron İcra Hakimiyyəti və Misirin Qəlyubiyyə İcra Hakimiyyəti arasında Anlaşma Memorandumu;
- İki ölkənin hökumətləri arasında hava nəqliyyatı haqqında sazişə əlavə Protokol.

Əlamətdar hadisələrdən biri 2008-ci ildə Misirin **Qalubiyyə şəhəri ilə Xırdalan şəhərinin qardaşlaşmış şəhərlər elan edilməsi** olmuşdur. Xırdalan şəhərindəki Misir Dostluq Parkının yerləşdiyi küçə Qalubiyyə adlanır. Misir hökuməti də öz növbəsində Qalubiyyə şəhərində yerləşən küçələrin birinə «Abşeron» adını vermişdir.

---

[2] https://cairo.mfa.gov.az/az/content/3/ikiterefli-munasibetler

İ.Əliyevin prezidentliyi dönəmində iki ölkə arasında baş verən əhəmiyyətli hadisələrdən biri də 2005-ci ilin 6-13 noyabr və 2006-cı ilin 20-28 noyabr tarixlərində müvafiq olaraq **Misirdə və Azərbaycanda mədəniyyət günlərinin keçirilməsi** olmuşdur.

2016-cı il noyabrın 2-də Azərbaycanın xarici işlər naziri Misirə, 2019-cu ilin noyabrında isə Misirin xarici işlər naziri Sameh Şukri Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşündə iştirak etmək üçün Azərbaycana səfər etmişdir. Bu səfərlər zamanı keçirilən görüşlər, aparılan müzakirələr münasibətlərin hazırkı inkişaf səviyyəsinə çatmasında mühüm rol oynamışdır.

### ƏLAQƏLƏRİN İNKİŞAFINDA YENİ MƏRHƏLƏ

Vətən müharibəsindən sonrakı dövrü Azərbaycan-Misir əlaqələrində yeni mərhələ olaraq dəyərləndirmək olar. Belə ki, 2023-cü ilin yanvar ayında diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycana Misirin **dövlət başçısı səviyyəsində ilk səfər** həyata keçirildi. Ondan il yarım sonra, bu ilin iyun ayında isə, Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Misir Ərəb Respublikasına səfər etdi.

Qeyd edək ki, hər iki səfər ərəfəsində Bakıda və Qahirədə iki ölkə rəsmilərinin iştirakı ilə önəmli müzakirələr aparılmış, əməkdaşlığın inkişafı ilə bağlı konkret qərarlar alınmışdır. Belə ki, 2022-ci ilin fevralında Bakı şəhərində **Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın beşinci iclası** keçirilib.[3] İclasda iştirak etmək məqsədilə Müştərək Komissiyanın Misir Ərəb Respublikası tərəfindən həmsədri, bu ölkənin beynəlxalq əməkdaşlıq naziri Rania Al-Maşatın rəhbərliyi ilə nümayəndə heyəti ölkəmizə səfərə gəlib. İclasda ticarət, sənaye, qarşılıqlı investisiyalar, təhsil, mədəniyyət və turizm sahəsində əməkdaşlıq imkanlarına dair müzakirələr aparılıb. İclasın sonunda Azərbaycan Respublikası və Misir Ərəb Respublikası arasında Hökumətlərarası iqtisadi, texniki və elmi əməkdaşlıq üzrə Müştərək Komissiyanın beşinci iclasının Protokolu və aşağıdakı sənədlər imzalanıb:

- "Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi ilə Misir Ərəb Respublikasının Mikro, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyi arasında Anlaşma Memorandumu";
- "Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO ilə Misir Ərəb Respublikasının Ticarət və Sənaye Nazirliyi arasında Azərbaycan – Misir Biznes Şurasının yaradılması haqqında Anlaşma Memorandumu";

[3] https://mincom.gov.az/az/media/xeberler/bakida-azerbaycan-ve-misir-arasinda-hokumetlerarasi-musterek-komissiyanin-besinci-iclasi-kecirilib1440 Bakıda Azərbaycan və Misir arasında Hökumətlərarası Müştərək Komissiyanın beşinci iclası keçirilib

- “Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO ilə Misirli İş Adamları Assosiasiyası arasında Anlaşma Memorandumu”;
- “Azərbaycan Respublikasının “Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC ilə Misir Ərəb Respublikasının İsgəndəriyyə limanı arasında Anlaşma Memorandumu”.

Azərbaycan Prezidentinin Misirə səfəri ərəfəsində - bu ilin may ayında isə, Azərbaycan xarici işlər nazirinin müavini Fariz Rzayevin başçılıq etdiyi 22 rəsmi şəxsdən, eləcə də bir çox dövlət və özəl sektor təmsilçilərindən ibarət nümayəndə heyəti Qahirədə Misirin beynəlxalq əməkdaşlıq naziri Rania Əl-Maşat ilə görüşüb.[4] Görüşdə rəqəmsal inkişaf, nəqliyyat, investisiyaların təşviqi, bərpaolunan enerji, neft, səhiyyə, sənaye və tikinti sahələrində əlaqələrin inkişaf etdirilməsi çərçivəsində müzakirələr aparılıb. Həmçinin **Misir-Azərbaycan Biznes Şurasının yaradılması**, ticarət, investisiya, əczaçılıq, aviasiya və dəniz nəqliyyatı sahələrində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bundan başqa, iki ölkə arasında neft-qaz, kimya sənayesi və pestisidlərin istehsalı sahələrində təcrübə mübadiləsi, habelə süni intellekt və nanotexnologiyalar üzrə əlaqələrin perspektivləri də nəzərdən keçirilib.

**Əbdülfəttah Əl-Sisinin Azərbaycana səfəri**

Ötən ilin yanvar ayında Əbdülfəttah Əl-Sisinin Azərbaycana rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafı istiqamətində atılan yeni addım oldu. Səfər çərçivəsində ölkə başçıları arasında öncə təkbətək, sonra heyətlər arası görüş baş tutdu, iki ölkə arasında üç mühüm sahədə - iqtisadiyyat, mədəniyyət və ekologiya - əməkdaşlıq memorandumları imzalandı.[5] Ardınca iki ölkə başçısı mətbuata bəyanatla çıxış etdilər.

Görüşlər çərçivəsində Prezident İ.Əliyev və Ə.Əl-Sisinin çıxışlarında bir sıra diqqətçəkən məqamlar oldu: Belə ki, geniş tərkibdə baş tutan görüş zamanı İ.Əliyev: “*Misir-Azərbaycan əlaqələrinin gələcək inkişafı ilə bağlı bizim **fikir ayrılığımız yoxdur**. Bir çox sahələrdə əməkdaşlıq üçün çox gözəl imkanlar var. Əminəm, əldə olunmuş razılaşmaları biz səfərdən sonra icra edəcəyik*” – deyə, bildirmişdir.

Cavabında isə, Ə. Əl-Sisi:*“Cənab Prezident, Sizinlə razılaşdıq ki, istər Azərbaycan investorları, istərsə də misirli investorlar üçün ölkələrimizdə asanlaşdırıcı tədbirlər görülsün və onlara kömək göstərilsin. **Əsasən də əczaçılıq sahəsində** müştərək müəssisələrin və müştərək investisiyaların yaradılması da bizim aramızda əldə olunan*

[4] https://xalqqazeti.az/az/siyaset/180743-qahirede-azerbaycan-misir-elaqelerinin-perspektivleri Qahirədə Azərbaycan-Misir əlaqələrinin perspektivləri müzakirə olunub
[5] https://president.az/az/articles/view/58740 Azərbaycan-Misir sənədləri imzalanıb, 28.01.2023

*razılaşmadır. Siz qeyd etdiyiniz kimi, Azərbaycanın ehtiyac duyduğu bütün dərman preparatlarının siyahısı hazırlanıb bizə təqdim olunandan sonra biz də bu istiqamətdə öz işlərimizi görəcəyik"* – deyə qeyd etmişdir.

Önəmli bəyanatlar birgə keçirilən mətbuat konfransında da verilmişdir. Belə ki, İ.Əliyevin: *"Misir bu gün yerləşdiyi bölgədə **sabitləşdirici rol** oynayır. Biz bunu çox təqdir edirik və əldə olunmuş nailiyyətlərlə öz dostlarımızı səmimiyyətlə təbrik edirik. Əminəm ki, bizim ikitərəfli əlaqələrimizin uğurlu inkişafı xalqlarımız və dövlətlərimiz üçün çox faydalı olacaq. Eyni zamanda, yerləşdiyimiz bölgələrə də əlavə sabitlik gətirəcəkdir"* – sözlərini, Ə. Əl-Sisi:*" İstərdim ki, ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı səylərimizi daha da gücləndirək. Ölkələrimiz arasında siyasi dialoqun hər iki xalqın mənafeyi naminə davam etdirilməsini istəyirik və müxtəlif sahələrdə ikitərəfli **əməkdaşlığın inkişafında maraqlıyıq**. Xalqlarımızın dini, tarixi yaxınlıqlarını nəzərə alaraq, iqtisadi, ticari və mədəni sahələrdə əlaqələrimizi daha da inkişaf etdirmək niyyətindəyik"* – şəklində cavablamışdır.

Prezidentlərin çıxışları əsnasında toxunduqları məqamlar ikitərəfli dostluq əlaqələrini, gələcək perspektivləri ehtiva etməklə yanaşı, həm də dünyaya önəmli mesajlar vermişdir. Misir prezidentinin İ.Əliyevi ölkəsinə dəvət etməsi münasibətlərdə yeni müsbət dinamikanın müjdəçisi olmuşdur.

**İlham Əliyevin Misirə səfəri**

8 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Misir Ərəb Respublikasına səfəri ilə iki ölkə arasındakı əlaqələr yeni müstəviyə qədəm qoydu. Son illər tərəflər arasında artan siyasi təmaslar, habelə ötən ilin yanvar ayında Misir prezidentinin Azərbaycana rəsmi səfərinə cavab olaraq reallaşdırılan bu səfər ümumilikdə ikitərəfli əlaqələrin genişləndirilməsi istiqamətində birgə səyləri nümayiş etdirdi. Səfər çərçivəsində ölkə başçılarının birgə bəyanatları, müzakirə olunan məsələlər, həmçinin altı müxtəlif sahədə əməkdaşlıq memorandumlarının imzalanması əlaqələrin gələcək müsbət perspektivlərindən xəbər verdi.

**Qeyd edək ki, bu səfər İ.Əliyevin Misirə 2007-ci ildən sonra ikinci, Ə. Əl-Sisinin dönəmində ilk səfəri idi.** Səfər həm də Cənubi Qafqazdakı proseslərin, Yaxın Şərqdəki gərgin vəziyyətin davam etdiyi vaxta təsadüf etməsi baxımından əhəmiyyət daşıdı. İki ölkə başçısı arasında baş tutan görüşlərin prioritet mövzuları da bunlar oldu.

Görüş əsnasında Ə. Əl-Sisi Cənubi Qafqazdakı proseslərin gedişatına toxunaraq: *"Cənab Prezidentə **Cənubi Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsi** istiqamətində səylərin vacibliyini və bu səyləri dəstəklədiyimizi bir daha bildirdim. Bu səylər region ölkələrinin və xalqlarının inkişafı üçün böyük töhfə olacaq. Həmçinin*

*cənab Prezidentə bildirdim ki, növbəti mərhələdə ikitərəfli əlaqələrin bütün sahələrdə inkişafının şahidi olacağıq*" – deyə, bildirib.

Çıxışında İ. Əliyev Yaxın Şərqdə baş verən böhrana toxunaraq: "*Fələstin-İsrail münasibətlərinin tənzimlənməsi və müstəqil Fələstin Dövlətinin yaradılması bizim Qoşulmama Hərəkatına sədrliyimiz dövründə hər zaman diqqət mərkəzində idi, bir çox tədbirlər keçirilmişdir və Azərbaycanın mövqeyi birmənalıdır -* ***müstəqil Fələstin Dövləti qurulmalıdır****, Şərqi Qüds onun paytaxtı olmalıdır. Mən Prezident Əl-Sisiyə bildirdim ki, biz Misirin bu istiqamətlərdəki səylərini dəstəkləyirik və Misir tərəfindən irəli sürülmüş təşəbbüslər diqqətə alınmalıdır*" – deyə, qeyd edib.

Səfər çərçivəsində həmçinin iki ölkə arasında iqtisadiyyat, energetika, rabitə-nəqliyyat, informasiya texnologiyaları sahələrində **altı anlaşma memorandumu** imzalanıb.

Səfərin digər önəmli məqamlarından biri İ. Əliyevin **Əl-Əzhəri Şərifin şeyxi, böyük imam Əhməd Məhəmməd Əhməd Əl Tayyib** ilə görüşü olmuşdur. Görüşdə Əl-Əzhər şeyxi Azərbaycanda keçiriləcək COP29 tədbiri çərçivəsində dini liderlərin toplantısının keçirilməsi üçün birgə işlərin aparıldığını bildirmiş, Azərbaycanın dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə və mötədil İslamın inkişafına mühüm töhfə verən dövlət olduğunu qeyd etmişdir.

### MÜNASİBƏTLƏRƏ TƏSİR GÖSTƏRƏN AMİLLƏR

Azərbaycan və Misir arasında qeyd etdiyimiz tarixi dostluq əlaqələri hər zaman tam müsbət dinamikada davam etməyib. Ümumən inkişaf üzrə irəlilləyən əlaqələr bəzən durğunluq dövrü keçirərək, münasibətlərdə müəyyən məsafədə saxlanması ilə müşayiət olunub. Buna təsir edən iki faktoru qeyd edə bilərik:

- **Misirdəki erməni diasporunun Azərbaycanla münasibətlərə təsiri**

Misir erməni diasporunun tarixən geniş yayıldığı Yaxın Şərq ölkələrindən biri olaraq, XX əsrin əvvəllərində erməni diasporunun ən böyük icmalarından birinə ev sahibliyi edib. 1927-ci ilin siyahıyaalmasına görə, Misir ermənilərinin sayı 1917-ci illə müqayisədə 12 mindən 17 minə çatmış, 40-cı illərdə 40 min, 50-ci illərdə isə bu rəqəm 45 min təşkil edərək pik həddə yüksəlmişdir.[6] Misirin erməni icmasının hazırda ümumi sayının 5 min nəfər civarında olmasına baxmayaraq, onların təsirini bütün Misirdə görmək mümkündür. Lakin hazırda Misirdəki erməni institutları icma arasında birliyi qorumaq problemi ilə üz-üzədirlər. **Bunun əsas səbəbi qeyri-ermənilərlə nikah və gənc ermənilərin xaricdəki imkanlara cəlb olunmalarıdır.**

---

[6] https://egyptianstreets.com/2022/06/08/how-the-armenian-community-made-egypt-a-home/#google_vignette - How the Armenian Community Made Egypt a Home, 06.08.2022

Misir ermənilәri bu ölkənin vətəndaşı olub, Misirin şəxsiyyət vəsiqəsini daşıyır və orduda xidmət edirlər. Ərəb Şərqində ən böyük xristian icmalarından birinə ev sahibliyi edən Misirdə 6 erməni kilsəsi vardır. Bunlardan üçü paytaxt Qahirədə, digər üçü İsgəndəriyyə şəhərində yerləşir.

**Qeyd edək ki, Misirin ilk xarici işlər naziri Boqos Yusifyan, ilk Baş naziri Nübar bəy Nübaryan, digər dövlət xadimləri Tiqran Paşa və Nübar bəy Nübaryanın oğlu Boqos Nübar Paşa Nübaryan Misirin erməni icmasının nümayəndələri olublar.** Nübar bəy Nübaryanın adı korrupsiya fəaliyyətlərində çəkilmiş və onun İsgəndəriyyədə yerləşən Opera evinin qarşısında qoyulan heykəlinin sökülməsi tələb edilmişdir.[7]

Misir erməniləri həm də ölkədə mətbəə, gəmiqayırma, toxuculuq, tikmə sənəti, tütün istehsalı kimi bir sıra sənaye sahələrinin inkişafına töhfə vermiş hesab olunurlar.

Misir-Ermənistan əlaqələri tarixi spesifiklik, xüsusilə Misirdəki erməni icmasını nəzərə alaraq sıx və konstruktiv əməkdaşlıq əlaqələri ilə səciyyələnir. Misir Ermənistanın etibarlı tərəfdaşlarından, Ermənistanın müstəqilliyini tanıyan ilk ölkələrdən biridir. Diplomatik əlaqələrin qurulması haqqında saziş 1992-ci ildə imzalanmışdır. 1992-ci ilin mart ayında Qahirədə Ermənistan səfirliyi, 1993-cü ilin may ayında İrəvanda Misir səfirliyi açılmışdır.

Prezident Əbdülfəttah Əl-Sisi 2019-cu il Münhen Təhlükəsizlik Konfransında çıxışında ermənilərin yüz il əvvəl məruz qaldıqları “qırğın”lardan sonra ölkəsinin onlara ev sahibliyi etdiyini bildirmişdir. Lakin o, “soyqırımı” ifadəsini işlətməmiş, həmçinin bu “qırğın”ın kim tərəfindən törədildiyini dilə gətirməmişdir. Misirdəki Erməni Milli Komitəsi Əl-Sisinin bəyanatını erməni “soyqırımı”nın tanınması istiqamətində atılan “ilk addım” kimi qiymətləndirmişdir. Qeyd edək ki, **Misir qondarma “erməni soyqırımı”nı rəsmi şəkildə tanımayan dövlətlərdən biridir.**

Misir dövlətinin Ermənistan ilə yaxın münasibətlərinin olmasına baxmayaraq, bu ölkə İkinci Qarabağ Müharibəsində neytral mövqe tutmuş, məsələnin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğunu qeyd etmişdir. 2023-cü ilin yanvar ayının 28-də Misir Prezidenti Ə. Əl-Sisinin Azərbaycana ilk rəsmi səfəri onun Azərbaycan dövlətinə və onun siyasi xəttinə olan hörmət və rəğbətinin bir daha göstəricisi olmuşdur. Onun bu cümləsi qeyd edilənlərə sübut kimi qiymətləndirilə bilər: “Cənab Prezident, görüşümüz zamanı bütün sahələrdə özünü büruzə verən qarşılıqlı anlayış, istər siyasi, istər iqtisadi, istərsə digər sahələrdə əməkdaşlığın inkişafı istiqamətində hər iki

[7] تمثال نوبار باشا.. نصف قرن من الجدل لماذا يغضب منه مثقفو الإسكندرية؟ - اليوم السابع (youm7.com) - Nübar Paşanın heykəli...Yarım əsrlik mübahisələr.. İsgəndəriyyə ziyalıları ona niyə qəzəblənir?

tərəfin siyasi iradəsinin mövcudluğu bu əlaqələrin tez bir zamanda daha da gücləndiriləcəyinə məndə əminlik yaradır.”

Qeyd edək ki, Misirin erməni icmasının ölkənin müxtəlif sahələrinə nüfuz edərək güc sahibi olması bəzən Azərbaycanla Misir arasında ikitərəfli əlaqələrə müəyyən mənfi təsir göstərmişsə də, bu, ciddi təsir imkanına malik olmamışdır.

- **Misir-Türkiyə əlaqələrindəki böhranın Azərbaycanla münasibətlərə təsiri**

Son onillik ərzində Misirin Azərbaycanla münasibətlərini müəyyən məsafədə saxlayan faktorlardan biri Misirin erməni icmasının təsiri idisə, digəri Türkiyə və Misir əlaqələrindəki böhran olmuşdur. Belə ki, Misirdə 2011-ci il inqilabından sonra 2012-ci ilin iyununda keçirilən prezident seçkilərində "Müsəlman qardaşları"nı təmsil edən Məhəmməd Mursinin prezident seçilməsi ilə Türkiyə ilə əlaqələr yeni vüsət qazanmışdır. Lakin 2013-cü ildə o zamankı Baş Qərargah rəisi Ə. Əl-Sisinin başçılıq etdiyi Misir ordusunun hakimiyyəti ələ keçirməsi və 2014-cü il seçkilərində ölkənin yeni prezidenti seçilməsi ilə iki ölkə arasındakı əlaqələrdə böhranın təməli qoyulmuşdur.

Bu siyasi ixtilaf Misir ilə yanaşı, həm də Türkiyə iqtisadiyyatına mənfi təsir göstərmişdir. 2012-ci ildə tərəflər arasında nəqliyyat, təhsil və səhiyyə sahələrində imzalanmış 27 müqavilə Mursinin devrilməsindən sonra dondurulmuşdur. Misir hökuməti nəinki iqtisadi əlaqələrin inkişafı üçün heç bir tədbir görməmiş, həm də Afrika və Ərəb Körfəzi ölkələrində malların satışı üçün Misir ərazisindən (və Süveyş kanalından yan keçməklə) Türkiyəyə tranzit xidmətləri göstərməkdən imtina etmişdir. Bu, türk mallarının bahalaşması və onların rəqabət qabiliyyətinin azalması ilə nəticələnmişdir.

Lakin son iki il ərzində Misir və Türkiyə münasibətlərini normallaşdırmaq üçün davam edən səyləri müşahidə etmək mümkündür. Bu ilin fevral ayında Türkiyə Prezidentinin Qahirəyə səfəri ilə əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

#### ƏMƏKDAŞLIĞIN PERSPEKTİVLƏRİ VƏ POTENSİAL İMKANLAR

Hər iki ölkənin regionun güc sahibi olduğunu nəzərə alaraq, onları bir-biri üçün etibarlı tərəfdaş - Misiri hərbi, Azərbaycanı isə iqtisadi tərəfdaş - olaraq qiymətləndirə bilərik:

**Misir hərbi güc kimi.** Şimali Afrikanın və Yaxın Şərqin ən böyük ölkəsi olan Misir həm də ərəb ölkələrinin ən güclü orduları siyahısına başçılıq edir. Belə ki, 2024-cü ilin statistikasına görə, Misir ordusu Türkiyə və İrandan sonra Yaxın Şərqin ən güclü

**orduları arasında üçüncü yerdə, dünyanın 145 ən böyük ordusu arasında 15-ci** yerdədir.[8]

113 milyonluq Misir əhalisinin 37 milyonu hərbi xidmətə yararlı, 1.6 milyonu isə hər il əsgərlik yaşına çatan şəxs hesab edilir. Misir ordusu əsgərlərinin sayı 1 milyon 220 min nəfərdir. Bunların 440 mini aktiv qüvvə, 480 mini ehtiyat qüvvə, 300 mini isə hərbiləşdirilmiş qüvvədir.

Misirin hərbi büdcəsi **9.4 milyard dollar** olaraq qiymətləndirilir. Onun hava qüvvələri 1080 döyüş təyyarəsi ilə dünyanın ən böyük hava qüvvələri arasında 8-ci yerdədir. Misir tank sayına görə dünyada 3-cü, hərbi maşın sayına görə 7-ci, raket buraxılışına görə 4-cü, dünyanın ən böyük hərbi donanmaları arasında 22-ci yerdədir. Önəmli hərbi gücə malik Misirlə əlaqələrin genişləndirilməsi gələcəkdə hərbi sahədə əmədaşlığa zəmin yaradır və bunu Azərbaycan üçün faydalı imkan hesab etmək olar (Misir dövlətinin ordu imkanları aşağıdakı cədvəldə əks olunub).

| **MİSİR ORDUSUNUN HƏRBİ GÜC İMKANLARI** | | | |
|---|---|---|---|
| ***Canlı qüvvə*** | ***Hava qüvvələri*** | ***Quru qoşunları*** | ***Hərbi donanma*** |
| 440 min aktiv qüvvə | 238 döyüşçü təyyarəsi | 5.340 tank | 2 helicopter daşıyıcı (helikopter gəmisi) |
| 480 min ehtiyat qüvvə | 88 hücum təyyaraəsi | 77.596 hərbi maşın | 13 freqat |
| 300 min hərbiləşdirilmiş heyət | 59 hərbi nəqliyyat təyyarəsi | 1489 özüyeriyən silah | 7 korvet |
| | 346 təlim təyyarəsi | 1.557 yedəkli silah | 8 sualtı qayıq |
| | 11 xüsusi missiya təyyarəsi | 1.119 başlatma qurğusu | 42 patrul gəmisi |
| | 100-ü hücumçu olmaqla 338 helikopter | | 23 dəniz minaaxtaran gəmisi |
| | | | 436 ticarət gəmisi |

[8] https://www.globalfirepower.com/country-military-strength-detail.php?country_id=egypt - 2024 Egypt Military Strength

Qeyd edək ki, ötən ilin dekabr ayının 5-də “EDEX 2023” beynəlxalq müdafiə sərgisində iştirak etmək üçün Misirdə səfərdə olan Azərbaycanın müdafiə naziri general Zakir Həsənov misirli həmkarı general Məhəmməd Əhməd Zəki ilə görüşmüş, iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunmuşdur.[9]

**Azərbaycan iqtisadi güc kimi.** 2011-ci ildən etibarən bir sıra ərəb ölkələrini bürüyən “Ərəb baharı” dalğası, regional və beynəlxalq hadisələr, dövləti zəiflətməyə və sabitliyi pozmağa yönəlmiş sui-qəsdlər Misirin iqtisadiyyatına ciddi mənfi təsir göstərmişdir. Bunlar ölkə iqtisadiyyatının təxminən 380 milyard cüneyh (42 milyard dollar) itkisi ilə nəticələnmişdir.

Ölkəni üzləşdiyi bu iqtisadi böhrandan çıxarmaq üçün 2014-cü ildən etibarən prezident Ə. Əl-Sisinin idarəçiliyi ilə Misir iddialı iqtisadi layihə hazırlamağa başlayıb. **“Misir 2030 Vizyonu”** adlanan bu layihə çərçivəsində ölkəni "modernləşdirmək və transformasiya etmək" üçün bir çox meqa layihələr həyata keçirməyi hədəfləyən Əl-Sisi hökuməti siyasi və iqtisadi sahədə xarici ölkələrlə qurduğu ittifaqları genişləndirməyə davam edir.

Misir 2025-ci ilə qədər Yaxın Şərq və Şimali Afrikada sənaye iqtisadiyyatı və texnoloji məhsulların əsas ixracatçısı olmağı planlaşdırır. Son illərdə Misir xaricdən böyük həcmdə - 140 milyarddan çox xarici sərmayə cəlb etməklə ciddi uğurlara imza atıb və hazırda həmin tərəfdaşlardan biri kimi Azərbaycanı görür. Azərbaycan həm də Misir üçün Xəzəryanı və Mərkəzi Asiya dövlətlərinin bazarlarında ticarəti inkişaf etdirmək baxımından vasitəçi kimi önəmlidir.

Qeyd edək ki, 30 il öncə 1994-cü ildə ümummilli lider Heydər Əliyev Misridə işgüzar səfərdə olarkən Azərbaycanın torpaqlarının 20 faizinin işğal altında olması və həmin ərazilərdən bir milyondan artıq Azərbaycan vətəndaşının didərgin, qaçqın düşməsi ilə əlaqədar Azərbaycanın iqtisadi böhran keçirdiyini bildirmişdir. Eyni zamanda, 2000-ci ildə Misir Ərəb Respublikasının ölkəmizdəki səfiri Həsən Məhəmməd əl-İnani Heydər Əliyev ilə görüşündə ikitərəfli iqtisadi əlaqələrin zəif olduğunu xüsusilə qeyd etmişdir: “*Burada səfir kimi fəaliyyət göstərdiyim müddətdə çox çalışdım ki, iqtisadi əməkdaşlığımız da yüksək səviyyəyə qalxsın. Lakin təəssüf ki, iqtisadi əlaqələrimiz siyasi əlaqələrimiz səviyyəsinə qalxa bilmir”.*

---

[9] https://azertag.az/ar/xeber/arabic-2841807 - وزير الدفاع الاذربيجاني يلتقي نظيره المصري بحث التعاون بين أذربيجان ومصر في المجالين العسكري والتقني, 05.12.2023

Lakin ötən müddət ərzində Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmiş və hazırda o, dünya ölkələrinin iqtisadi tərəfdaş olaraq gördüyü güclü ölkəyə çevrilmişdir. Bu da Misirlə iqtisadi əlaqələri siyasi əlaqələr səviyyəsinə qaldırmağa tam imkan yaratmışdır.

**Digər sahələrdə əməkdaşlıq imkanları**

**Əczaçılıq**. Əczaçılıq sahəsində kifayət qədər uğurları olan Misir Azərbaycanın dərman ehtiyaclarının ödənilməsi üçün əməkdaşlığa hazır olduğunu bildirib. Bu istiqamətdə birgə fəaliyyətin forma və istiqamətləri barədə artıq müəyyən razılaşmalar əldə olunub və həmin razılaşmaların, o cümlədən bu sahəyə müştərək investisiya qoyuluşunun gerçəkləşməsi iki ölkə arasında əməkdaşlığın yeni məzmunla zənginləşməsinə əhəmiyyətli töhfə verəcəkdir.

**Enerji.** Son illər Misir elektrik enerjisi istehsalı sahəsində həyata keçirilən islahatları, yaradılmış infrastrukturu ilə uğura imza atan ölkələr sırasındadır. Bu məsələ iki ölkə başçısının görüşü zamanı müzakirə mövzularından biri olmuş və Misir prezidenti son doqquz il ərzində əldə edilmiş bütün təcrübələrini Azərbaycan tərəfi ilə bölüşməyə hazır olduqlarını bildirmişdir.

**Turizm.** Misir dünyanın ən mühüm turizm ölkələrindən biri kimi tanınır, bu da son illər turizmin inkişafına xüsusi diqqət yetirilən Azərbaycanla həmin sahədə əməkdaşlığın genişləndirilməsi üçün əlverişli imkanlar açır. Hələ 2018-ci ildə Prezident İlham Əliyev Misir Ərəb Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Adel İbrahim Ahmed İbrahimin etimadnaməsini qəbul edərkən, bu mövzuya ayrıca yer ayırmış, iki ölkə arasında turizm sahəsində əməkdaşlıq imkanları ilə bağlı müzakirələrin aparıldığını vurğulamış, insanların daha müntəzəm səyahətlərinin təşkil edilməsi üçün birbaşa uçuşların yaradılmasının önəminə toxunmuşdur.[10]

**Təhsil və elm.** Misirin "Əl-Əzhər", "Qahirə", Ayn-Şəms", "Tanta" "6 Oktyabr" universitetlərində rəsmi şəkildə Azərbaycan dili fənni tədris olunur. Habelə "Misir-Azərbaycan Dostluq Cəmiyyəti"ndə dünyanın müxtəlif ölkələrindən olan 700-ə yaxın tələbə ödənişsiz əsaslarla təhsil alır. Müşahidələr əsasında söyləmək olar ki, həmin tələbələrin Azərbaycan dilinə olan sevgiləri onları Azərbaycanın tarixi və mədəniyyəti ilə də yaxından maraqlanmağa sövq etmişdir. Bütövlükdə, iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın böyük potensialı vardır. Həmçinin qeyd olunmalıdır ki, Misir

[10] https://president.az/az/articles/view/27173 İlham Əliyev Misirin Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

kitabxanalarında qədim Azərbaycan əlyazmaları saxlanılır, bu da elmi əməkdaşlıq üçün əlverişli zəmin yaradır.

**Nəticə**

Qeyd edilənlərin yekunu olaraq Azərbaycan-Misir münasibətlərinin bu gün yeni inkişaf mərhələsinə qədəm qoyduğunu və bunun hər iki xalqın milli maraqlarına xidmət etdiyini söyləyə bilərik. İki ölkə arasında əlaqələrin inkişafı üçün böyük potensialın olması və qarşılıqlı səfərlər sayəsində səmərəli əməkdaşlığın genişləndirilməsi perspektiv üçün geniş imkanlar yaratmaqdadır.

Azərbaycan və Misirin BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığı bu iki ölkənin İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində birgə səylərinin göstəricisinə çevrilmişdir. Misirin də dəstəyi ilə Azərbaycan dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmiş və bu sədrlik nəticəsində Hərəkat daha böyük imkanlara malik olmuşdur.

Misirin erməni icmasının fəaliyyəti Azərbaycan-Misir əlaqələrinə müəyyən mənfi təsir göstərmişsə də, bu tarixi əlalqələrin bünövrəsini sarsıda bilməmişdir. Əksinə, bu hal son dönəmdə Ermənistan tərəfində müşahidə olunmuşdur. Belə ki, bu ilin 5-6 mart tarixlərində Ermənistanın Baş naziri Nikol Paşinyanın Misirə iki günlük rəsmi səfəri onun gözlədiyi nəticəni verməmişdir. Misirdən qayıtdıqdan sonra Paşinyan parlamentdə hakim “Vətəndaş müqaviləsi” partiyasının nümayəndələri ilə qapalı görüşdə Misirə rəsmi səfərindən məyusluğunu ifadə etmiş, bu səfərin dövlət vəsaitinin israf edilməsindən başqa heç nə gətirmədiyini vurğulamışdır.[11] Baş nazirin səfərinin qayəsində Yaxın Şərq regionun ən güclü hərbi imkanlarına malik üçüncü ölkəsi ilə hərbi sahədə əmkdaşlıq dayansa da, niyyətinə çata bilməməsi onun məyusluğunun səbəbi olmuşdur.

Ümummilli lider Heydər Əliyev 2001-ci ildə Bakıda Misirin xarici işlər nazirinin müavini Mehdi Fəthullahın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşdə: “Hesab edirik ki, Cənubi Qafqaz respublikalarında Azərbaycan Misir Ərəb Respublikası üçün bir nömrəli tərəfdaş olmalıdır” – deyə, bildirmişdi.[12] Bu gün deyə bilərik ki, artıq biz 23 il bundan öncə Ulu Öndərin Azərbaycan-Misir əlaqələrində görmək istədiyi səviyyənin şahidi olmaqdayıq.

---

[11] https://am.sputniknews.ru/20240309/pashinyan-razocharovan-ofitsialnym-vizitom-v-egipet--smi-73193042.html Пашинян разочарован официальным визитом в Египет – СМИ, 09.03.2024

[12] https://lib.aliyev-heritage.org/az/94234507.html